# VII. "QARABAĞDA QİYAMƏT"İN SONU

### 4. Doğma torpağın təpəri

Qırx dörd günlük Vətən müharibəsi bir çox cəhətlərinə görə dünyanın işğala qarşı mübarizə müharibələri ilə müqayisə oluna bilər; amma, əlbəttə, fərdi xüsusiyyətləri də nəzərə alınmaqla.

Birincisi, Azərbaycan ordusu psixoloji cəhətdən tam mükəmməl idi, müharibəyə hazır idi. Söz yox ki, fiziki hazırlıq, təlim işləri də kifayət qədər müasir müharibə səviyyəsinə uyğunlaşdırılmışdı. Belə ki, ordunun mənəvi hazırlığına əsas təlim fənni kimi vətəni düşməndən azad etmək şərt olaraq qarşıya qoyulmuşdu. Əsgərlər nəyin uğrunda və necə vuruşmalı olduqlarını yaxşı bilirdilər. Hər bir əsgər üçün belə bir hiss aşılanmışdı ki, müharibədə bütün döyüşçülər - komanda heyətindən siraviyə qədər hər kəs biri digərinin qardaşıdır, əzizidir. Hamı bir-birini qorumalıdır. Yalnız bu şərtlərə əməl olunmaqla düşmənə layiqli dərs vermək olar. İkincisi, düşmən ordusundan fərqli olaraq, Azərbaycan ordusu öz vətənində vuruşmalı olmuşdu. Lap dədə-babadan deyərlər ki, torpaq qüvvətli olar. Azərbaycan ordusuna güc verən amillərdən biri də əsgərlərin, döyüşən qüvvələrin ayaqları doğma torpağın üstündə idi. Bütün hallarda Azərbaycan əsgəri cəsarətlə vuruşduğu kimi, doğma torpaq uğrunda həlak olmağı da özünə şərəf bilirdi. Həqiqətən, Azərbaycan əsgəri, hətta ayrı-ayrı məqamlarda mühasirəyə düşəndə, güclü təzyiqlərlə qarşılaşanda səngəri qoyub qaçmağı ağlına da gətirmirdi. Səngər Azərbaycan əsgəri üçün təkcə vətənin bir parçası deyildi, elə həm də onun öz evi idi.

Üçüncüsü, Azərbaycan ordusuna xalq təsəvvürə gəlməz dərəcədə dəstək verir, öz ordusunu döyüşə ruhlandırır, qələbəyə inandırırdı. Bunun əksinə olaraq düşmən yad torpaqda, özünün olmayan ərazilərdə vuruşduğu üçün hətta Ermənistanın özündə belə adamlar bu müharibənin ermənilər üçün heç bir fayda vermədiyini, mənasız olduğunu anlayır, övladlarının Qarabağa göndərilməsinə etiraz edirdilər. Müxtəlif bəhanələrlə ermənilər öz övladlarını xaricə qaçırır, müharibədən yayındırırdılar. On minlərlə erməni əsgəri İkinci Qarabağ müharibəsində fərari kimi ad çıxarmışdı. Yaxud döyüşlərdə mübarizə apara bilmir, döyüşə bilmir, təslim olurdular. Onlardan fərqli olaraq, Azərbaycan ordusunda bir nəfər də olsun, fərarilik obrazı özünü göstərmədi.

Bütün bu xarakterik əlamətləri Ulduz Qasım "Qarabağda qiyamət" romanında ayrı-ayrı real hadisələrin təsviri ilə göstərə bilmişdir.

Azərbaycan əsgərinin döyüş dostuna münasibətini əsərin ayrı-ayrı fəsillərində göstərən maraqlı epizodlar var. Rəhmanla Natiqin arasındakı münasibət, yaxud komandir Teyfurla Rəhman və Natiq arasındakı münasibət... Bu münasibətləri göstərən səhifələrdə Azərbaycan əsgərlərinin bir-birinə qarşı doğmalığı, hətta oxucunu təsirləndirmək gücündə qələmə alınıb. Döyüşçülər bir-birinə mənəvi dayaq olur. Biri digərinin zərurət yaranan kimi yerini tutması göstərir ki, Azərbaycan ordusunda döyüş sırasının sarsılmazlığının xüsusi psixoloji kökləri var. Bir parçaya diqqət edək: *"Natiq topçu olduğuna görə onu Rəhmanla bir hissəyə salmışdılar. Oğlan qonşusunu görəndə gözlərinə inanmadı. Qucaqlaşdılar, hal-əhval tutdular. Ancaq çox danışmağa vaxt olmadı, düşmənin atdığı mərmilərdən biri ikinci topun yanına düşdü. Topçulardan biri şəhid oldu, ikisi isə yaralandı. Rəhmanla Natiq yaralıları və şəhidi dərhal arxaya daşıdılar. Təcili tibbi yardım göndərilməli. Komandir də köməyə gəldi. - Uşaqlar, siz yerlərinizə qayıdın, qoyun bunları başqaları daşısınlar. Rəhman, sən məni əvəz et, bu dəqiqə bunları həkimləri çatdırıb qayıdacam. - Baş üstə, polkovnik-leytenant, əmirinə hazıram. - Tez olun, uşaqlar, düşmənə göz açmağa macal verməyin. Qələbə bizimlədir. Və bütün hissənin əsgərləri bir ağızdan "Qələbə bizimlədir, Qarabağ Azərbaycandır" - deyə qışqırdılar. Toz-torpaqdan ətrafı doğru-düzgün görmək mümkün deyildi. Rəhman komandiri əvəz etdiyinə görə mərmilər qoyulandan sonra "atəş" - deyə qışqırırdı. Natiqsə ölən və yaralananların topuna bir-bir yaxınlaşıb ildırım surəti ilə mərmiləri yerləşdirib, komanda*



*verilən kimi atəş açırdı. Rəhman da arada onun köməyinə qaçırdı. Hərdən də, onu ruhlandırmaq üçün "aslansan, qardaşım" - deyirdi. Natiq isə dönüb gülümsəyirdi. Dediyi kimi, yaralıları tibbi yardıma çatdıran Teyfur tez qayıtdı. - Neylədiniz, igidlər, necədir vəziyyət? Rəhman "düşmən susur, irəlini yoxlamaq lazımdır, komandir" - dedi. Və qərara alındı ki, irəliyə gizlicə nəzarət etmək üçün Natiqlə polkovnik-leytenantın özü getsin. Lakin Rəhman narahat oldu: - Komandir, bəlkə, mən gedim sizinlə, Natiq hələ yenidir. - Narahat olma, bilirəm, o sənin dostundur, ancaq əvvəllər hərbidə olub, yəqin hər şey xəbərdardır. Bir də niyə qoymursan o da özünü sınasın? Onun gözündəki o cəsarəti görürəm mən. İşində ol".* Bu mənzərədə biz iki döyüşçünü görürük. Zərurət yarandığı üçün onlardan ayrılan komandiri - Teyfuru əvəz edən Rəhman siravi döyüşçü Natiqi göz bəbəyi kimi qoruyur. Həm də onu ruhlandırıcı sözlərlə həvəsləndirir, sarsılmasına imkan vermir.

Rəhmanla Natiq, demək olar ki, bir yerdə böyümüşdülər. Hər halda Rəhman Natiqə nisbətən təcrübəlidir. Və döyüşə də ondan əvvəl qatılıb. Demək, Natiqi qorumağı özünə borc bilir. Bu cür Azərbaycan döyüşçülərindən fərqli olaraq erməni komandirləri öz əsgərlərini döyüşdə hədələməklə saxlayır, onları güllələyəcəkləri hədəsi ilə qorxudur. Hətta o dövrün xronikasında bir dəhşətli epizod da göstərilmişdi. Erməni əsgəri səngərə zəncirlə bağlanmışdı. Şübhəsiz, məcburiyyət qarşısında əsgər heç vaxt məmnuniyyətlə, yeni inamla döyüşə bilməz. Biz Natiqin Rəhmanın yanında olması ilə necə inamlı olduğunu görürük. Azərbaycan əsgərində bir-birinə qardaşlıq münasibəti bütün müharibə boyu davam etdi.

Onların komandiri Teyfur Rüstəmov tezliklə geri qayıdır. Əsgərlərinin necə döyüşdüyünü görür və əlbəttə, bu görüntülər onun qəlbində xüsusi fərəh hissi doğurur. Hətta irəlini öyrənmək, kəşfiyyat aparmaq üçün komandir Natiqi özüylə götürmək istəyəndə Rəhman ondan daha təcrübəli olduğunu bildirərək Natiqi əvəz etmək istəyir, çünki bilir ki, düşmənin arxasına keçmək, onun mövqelərini öyrənmək həyati risk tələb edir.

Bu barədə Rəhmanla komandir Teyfur Rüstəmov arasındakı dialoq da Azərbaycan əsgərinin mənəvi mühitini göstərmək baxımından maraqlıdır: *"Onun bu sözləri oğlanın ürəyindən oldu. Əyilib dostunun qulağına pıçıldadı: - Doğru deyir, komandir qardaş, belə özünü üzmə, Allahın köməyi ilə tez dönərik. Rəhman dinməsə də, dostunun təhlükəli yerə getdiyini bildiyi üçün özünə yer tapmadı. Komandir ona "düşmənin başını qatın" - dedi - bizim irəli getdiyimizi hiss etməsinlər. Oğlan baş üstə işarəsini göstərdi. Natiq ilk dəfə belə yoxlamağa getdiyi üçün həyəcan keçirsə də, qorxmurdu: "Elə bunu istəyirdim, qoy görüm bu namussuzlar nə edə biləcəklər bizim bu igidlərimizin qarşısında. Köpək uşaqları, başlarını soxublar onun-bunun qoltuğuna , elə bilirlər igiddirlər. Çaqqallar, hamınızı burdan iti qovan kimi qovacağıq, görəcəksiniz. Bura sizin yeriniz-yurdunuz deyil axı, nə qələt edirsiniz buralarda?". Teyfurun səsi onu xəyalından ayırdı:*

*-Natiq, fikirləşmək zamanı deyil, geridə qalma. Başa düşürəm, bu yerlərdənsən. Dostun kimi gördüklərin çox təsir edir sənə, lakin ayıq olmaq, beynimizi iti çalışdırmaq gərəkdir".* Doğrudur, mətn xronikal xarakter daşıyır. Sanki dərin bədii-psixoloji təsvirlərə ehtiyac yoxdur, hətta müəllif təbiət haqqında da fikir demir. Amma onun mətn arası təbiət haqqında ifadələr işlətməsi qəhrəmanların əhvalına tam uyğundur.

Düşmənin arxasında hərəkət edən komandir Teyfur Rüstəmov və onun əsgəri Natiq son dərəcə cəsarət nümayiş etdirir. Nəzərdə tutulmuş məramı dəqiq və aydın yerinə yetirməyə çalışırlar. Onların hər bir addımı düşmən haqqında yeni məlumat almaq, nəticədə Azərbaycan əsgərinin qələbəsini təmin etmək deməkdir. Ancaq bu addımların hər birində elə təhlükə məqamları var ki, insanın hisslərini tarıma çəkir. Oxucu düşmən arasında kəşfiyyat işi aparan komandirin və Natiqin həyatı üçün həyəcan keçirir. Sanki onların bu əməliyyatdan sağ-salamat qayıtmasına qəlbində dua edir.

Düşmən arxasına kəşfiyyat üçün getmiş komandir Teyfur Rüstəmov və onun əsgəri Natiq arasındakı münasibət də Azərbaycan əsgərinin yüksək mənəvi keyfiyyətinin təsdiqidir. İstəristəməz bu Azərbaycan döyüşçülərinin təbiətlərini müşahidə edəndə son nəticədə qələbənin bizim olacağına heç bir şübhəmiz qalmır. Yəni oxucuda belə bir inam yaranır ki, qələbəni təmin edən amillərdən biri də döyüşçünün cəsarətidir. Üstəlik, həm də bir-birini qorumaq hissinin təsdiqi olan yüksək sədaqət duyğuları ilə bağlıdır.

Düşmən arxasında Azərbaycan döyüşçüsünün psixoloji durumunu göstərən parçalar da maraqla oxunur: *"Polkovnik-leytenant onları görəcəklərini hiss etdi və qərara aldı ki, bu yerlərdə kənd arasında "vəhşi sirkan" adlandırılan iri kollardan başlarına çələng qoysunlar və irəliləyəndə onun altında gizlənsinlər. Payız olmasına baxmayaraq, hələ də yarpaqlarını tökməyən bu kol işə yaraya bilər. Fikrini Natiqə anladandan sonra elə də etdilər. Komandirin düşüncələri işə yaradı, ətrafda sakitçilikdi, onları fərq edən olmadı. Teyfur əli ilə irəli komandası verdi: - Getdik. -Baş üstə. Onlar sürünə-sürünə səngərə girdilər. Deyəsən, qabaqda kimsə vardı. Dayandılar, komandir əlini ağzına qoydu və "hazır ol" işarəsi verdi. Natiq əlindəki avtomatı hazır tutdu. Ayaq səsləri gəlirdi. Gələnlər, görünür, bir neçə nəfərdi, buna görə polkovnik-leytenant əli ilə oğlan arxada durmasını işarə etdi. Səngərin döngəsinə çatanda birinci keçəni buraxan Teyfur ikincini vurdu. Onun hərəkətlərini anlayan Natiq birincini yerə sərməyi bacardı. Qalan üç erməni əsgəri durmadan atəş açmağa başladılar. Ayağından yaralanan komandir yerə yıxılsa da, gələnlərin ikisini də öldürməyi bacardı. Sonuncu yaralı olsa da, qaçmağa başladı. Onun arxasınca düşən Natiq özünü itirmədi, çatıb ermənini öldürdü. Yerə uzanmış komandir əli ilə "əla" işarəsini göstərdi. Orda qalmaq çox təhlükəli idi, arxadan yenə gələ bilərdilər. Ancaq, görünür, yerə yıxılan Teyfur Rüstəmovun yeriməsi çox çətin olacaqdı. Ona görə Natiq onu kürəyinə götürdü və sürətlə geri döndü. Səngərdən çıxanda arxalarınca gələn olub-olmadığını yoxladı. Heç kim yox idi. - Natiq, sən məni qoy yoldaşlarının yanına qayıt, gördün də onlar hansı səmtdən gəlirdilər, oranı nişan alsınlar, tez çatdır özünü yoldaşlarına. Oğlan razılaşmışdı. Mən sizi burda buraxıb gedə bilmərəm - dedi. Aparacağam kürəyimdə. Komandir bunun təhlükəli olduğunu bildirsə də Natiq onu dinləmədi, yerə yatıb sürünməyə başladı. Hər tərəf daşlıq, tikanlıq olduğuna görə paltarı və şalvarının dizləri cırıq-cırıq olmuşdu, amma o dediyindən dönmədi, komandirini topların yanına qədər gətirməyi bacardı. Dizlərinin qanaması onu, sanki, heç incitmirdi".* Hadisələr o qədər reallıqla təsvir olunur, faktlar o qədər həqiqətə uyğun verilir ki, sanki əlavə şərhə ehtiyac duyulmur. Oxucu özünü hadisələrin içində görür. Natiqin çətin anda cəsarət göstərməsi, düşmənə öldürücü zərbə vurması komandiri də xilas edir. Və beləliklə, Azərbaycan əsgəri ilk baxışdan qələbənin bir vintciyi kimi görünən kəşfiyyatı uğurla başa vurur. Və döyüşçülərimizin qələbə əzmini, hücumunu təmin etmiş olur. Kəşfiyyatdan qayıdan kimi lazım olan istiqamətlər dəqiq göstərilir. Bu da onların az qala həyatları bahasına əldə etdikləri məlumatın dəqiqliyi ilə bağlıdır.

Yaxud, başqa bir səhnədə komandir Həşim Nağıyevin və onun tabeliyində olan əsgər Həsənin arasındakı münasibət də çox xarakterikdir.

**(Davamı 5-ci səhifədə)**

*(Əvvəli 4-cü səhifədə)*

Müharibə dövrünün gərgin hadisələri yaddaşımızda elə bir ocaq qalayıb ki, onun yanğısını uzun illər dövrün şahidləri öz varlıqlarında hiss edəcəklər. Onu da qeyd etmək lazımdır ki, yazıçı Ulduz Qasım bütövlükdə müharibənin xronikasını verməyi qarşısına məqsəd qoysa da, Cəbrayılla bağlı bir çox detalları yerli-yerində təqdim edir. Hətta ərazinin xəritəsini də dəqiq aparır. Çünki ən azı qırx il əvvəl Ulduzun ənciliyi bu yerlərdə keçib. Cəbrayılın kəndlərinə yaxşı bələddir, xüsusilə, Arazboyu kəndlərinə. Eyni zamanda bu kəndlərdən Cəbrayıla doğru uzanan yolları da əsərində dəqiqliklə təsvir edir. Hətta düşmənin haralarda gizlənə biləcəyini, ordumuzun igid əsgərlərinin düşmənin gizlənc yerlərini necə tapmalarını demək olar ki, xəritəyə uyğun verir. Özü də Cəbrayılla bağlı döyüş səhnələrinə biz müəllifin həyəcanlarını da hiss edirik. Hər bir əsgərimizə dəyən güllərinin ağrısını öz varlığında hiss edir. Beləliklə, U.Qasım Azərbaycan ordusunun qəhrəman əsgərlərilə birgə səngərdən-səngərə keçir, döyüş mövqelərini əsgərlərlə birgə keçir. Görünür, bu səbəbdən əsərin bu yerlərində biz müəllifin ağrısını daha aydın hiss edirik. Müəllif üçün Vətən uğrunda şəhid olanlar, yaralananlar ağrının hamısı deyil, xarabazara çevrilmiş əraziləri yazdıqca Vətənin yaralarını öz canının yarası kimi göstərir.

Döyüş Cəbrayıl ərazisində gedir. Quycaq, Nüzgar, yaxud Arazboyu kəndləri... Həsən bu yerlər haqqında kifayət qədər təəssürata malikdir. Çünki erkən bu yerlərdən çıxmış olsa da, özündən yaşca böyüklərin danışıqlarından kifayət qədər məlumatlı idi. İndi doğma yerlərin xarabazarlıq görkəmini öz gözləri ilə görməsi onu sarsıtmışdı, onun varlığı od tutub yanırdı, axı nə üçün belə olmalı idi, axı düşmən yaxşı bilirdi ki, bu yerlər özgə torpaqlardır, onlara qalası deyil. Hər halda Həsənin təəssüratları bir Azərbaycan əsgərinin xarabazarlığa çevrilmiş yurdu haqqında necə düşündüyünü bütün aydınlığı ilə əks etdirir: *"Həşim Nağıyevin başçılıq etdiyi əsgər bölməsi kəşfiyyat işlərini, demək olar ki, bitirmişdi. Bütün səngərlər bir-bir yoxlanırdı. İki şəhid vermişdilər, bir neçə də yaralı vardı. Həsən yerində dura bilmirdi. "Niyə biz belə addım-addım gedirik" - deyə komandirindən soruşurdu. Həşim Nağıyev ona təsəlli verir, hər dəfə deyirdi: - Sakit ol, Həsən səni yaxşı başa düşürəm, öz doğulub-böyüdüyün yerləri bu yağılardan təmizləməyə can atırsan, lakin işimizi ehtiyatlı görməliyik. Səhv etməyə haqqımız yoxdur. Bircə səhv bizim planlarımızın hamısını poza bilər. Ən gözəli yuxarıdan əmr gözləməkdir, planları pozmaq olmaz. Dillənməsə də bu mənzərə Həsənin içini didib-dağıdırdı: "Vallah komandirim, baxıram ki, bu torpaqlardan ötrü ürəyim alışıb-yanır, bir buraları necə qoyub getmişdik? Kaş ki, görəydiniz. O zaman uşaq olsam da, xatırlayıram. Adamın üzünə gülürdü hər tərəf. İndi baxırsan yer-yurd qan ağlayır, adamın yazığı gəlir bu torpaqlara. Az qalır, dilsiz torpaqlar dil aça, çəkdiklərini, ona edilən zülmləri insanlara anlada. Kaş ki, Süleyman peyğəmbər kimi, Allah-taala mənə yarımca saatlığa canlıların, cansızların dilini bilməyi, dərdini anlamaq məharətini verəydi. Dinləyəydim onların şikayətlərini, yüngülləşəydi dərdləri bu cansız torpaqların.*

*Vallah yaxşı bilirəm, valideynlərim buranı görəndə ürəkləri dayanacaq. Canlı deyilmisiniz, niyə viran qoyursunuz Allahın yaratdıqlarını? Sizin heç dininiz-imanınız yoxdu? Yer üzünün bütün canlıları yığışsa, bir ləçəyi yarada bilməz. Bəs bələdirsə, niyə tanrının yaratdığına bu qədər zülüm edirsiniz, ay zalımlar. Gözlərimlə görməsəydim, bəlkə də, inanmazdım, vallah".*

*Döyüşçünün dərdini anlayan komandir də ürəyində cavab verirdi əsgərə: "Bax, ağzında zalım deyirsən, beləsindən nə gözləmək olar?"*

*Həsən dinmədi, elə bil, köksünün altında bir ağırlıq hiss etdi, nəfəsi daraldı".* Əsgərin keçirdiyi hissləri başa düşmək üçün o qədər də baş sındırmaq lazım deyil. Onu torpağın çəkdiyi əziyyətlər sarsıdır. Hətta özü günlərlə ac qalsa belə, fiziki məhrumiyyətlər çəksə də, düşməndən qorxmur. Ölümü gözünün altına alır. Ancaq ölümdən də qorxmur. Yalnız torpağın yaralarıdır onu göynədən, onu sarsıdan.

Azərbaycan əsgəri torpağın, vətənin yarasını öz canının ağrısı ilə qavrayır, onu məğlubedilməz edən də bu duyğulardır. Məlum olur ki, döyüş vəziyyətinə görə əsgərlərin ərzaq təminatı çətinləşib. Hətta Həsən neçə gün ac olduğunu da unudub. Əlbəttə, bütün bunlar da onu taqətdən salıb. Komandir müşahidə edir ki, əsgər ayaq üstə dura bilmir və o heysizləşib yıxılır. Vəziyyət aydınlaşandan sonra komandir onu məcbur geriyə göndərmək istəyir, amma Həsən yenə də razılaşmır. Bütün bunlar Azərbaycan əsgərinin hünəri haqqında kifayət qədər təəssürat yaradır.

Bütün çətinliklərə baxmayaraq, komandir Həşim Nağıyev Həsənin qayğısına qalır, onu həkimə çatdırır. Müəyyən müayinədən sonra həkimin təbəssümü komandirdə təəccüb doğurur. Məlum olur ki, Həsən aclıqdan taqətdən düşüb. Ancaq o məhz aclığı əhəmiyyətsiz hesab etdiyi üçün bu barədə komandirinə məlumat vermir. Əsgərin bu cür mərdanə hərəkəti, mövcud vəziyyəti düzgün qiymətləndirməsi komandirdə qürur hissi yaradır.

Hər bir komandir igid əsgəri özünün yetirməsi hesab edir. Döyüş mövqeyində komandir öz əsgərinə güvənməsə onun bütün təşəbbüsləri havada qalar.

Ulduz Qasımın *"Qarabağda qiyamət"* xronika romanı Azərbaycan ordusunun real döyüş mənzrəsini göstərmək baxımından çox dəyərlidir.

Belə bir misal var, deyirlər ki, kənardan baxana döyüş asan gələr. Ancaq hər bir döyüş epizodunda komandir və onun əsgərləri min bir problemi həll edir. Şübhəsiz, axın-axın gələn təhlükələrin, çətinliklərin qarşısında dayanmaq üçün əsgər öz torpağından güc almalıdır, dözüm göstərməlidir.

Ulduz Qasım *"Qarabağda qiyamət"* əsərində çoxlu orijinal obrazlar yaradıb. Bu obrazlardan biri də və deyərdim ki, ən parlaq və yadda qalanı Qarabağ torpağıdır. Düşmən otuz il ərzində bu torpağın sinəsinə nə qədər yara vursa da, bu torpağı didim-eləsə də, şəhərlərini, kəndlərini viran qoysa da, bu torpaq yenə öz təpərini qoruyub saxlayıb. Doğma övladları onu xilas etmək üçün gələndə bətnində saxladığı enerjini doğma övladlarına ötürür. Onlara sanki qeybdən güc bəxş edir, məğlubedilməzlik hissi aşılayır.

Ulduz Qasım üçün bu hadisələri yazmaq o qədər də asan başa gəlməyib, amma bir həqiqət də var ki, yazıçı da tərənnüm elədiyi torpağa döyüşçü kimi güvən oğullara nə qədər güvənirsə, elə bir o qədər də, vətən torpağına güvənir, yerə-yurda güvənir.

Beləliklə, doğma torpağın təpərindən yazıçıya da pay çatır. Onun belə bir əsəri yazıb başa çatdırması üçün Qarabağ torpağından təpər alması, güc alması təbiidir və başa düşüləndir.

***14.10.2022***

**5. Dönməzliyin əzmi, inadı**

Biz bir qədər əvvəl Azərbaycan ordusunun qələbəsini təmin edən amilləri sadalayarkən xalq-ordu vəhdətini müəyyən mənada əsas götürdük. Əlbəttə, xalq-ordu vəhdətini təmin edən əsas güc mənbəyi Ali Baş Komandanın təşkilatçılıq, idarəetmə və ən başlıcası, yüksək siyasi iradə qabiliyyətinə malik olması idi.

Bir mənalı şəkildə həmin dövrdə Ali Baş Komandanın gündəlik çıxışları, xalqla bir yerdə olması, xüsusilə xarici jurnalistləri məlumatlandırma səriştəsi uşaqdan böyüyə hər kəsi qələbəyə ruhlandırırdı. Hətta o dövrdə mən çıxışlarımdan birində dedim ki, Ali Baş Komandanın həmin müsahibələri vətən əzmarlığı dərsliyi üçün ən tutarlı vəsait ola bilər.




Ali Baş Komandan açıq danışırdı. Bütün baş verən hadisələrin mənzərəsini dəqiq və aydınlığı ilə xalqa çatdırırdı. Erməni vandallarının cinayətlərini, xüsusilə dinc əhaliyə hərbdən kənar şəhərlərə dəhşətli silahla hücumlarla qətiyyən bağışlanan deyil. Bunları Ali Baş Komandan xarici jurnalistlərə dəqiq faktlarla göstərir və müharibə cinayətkarlarını ifşa edirdi.

Xalq həmişə düz sözə, doğru sözə inanır. Ona görə də sonralar mükəmməl obraza çevrilən "dəmir yumruq" da elə bu inamın nəticəsi olaraq formalaşmışdı.

Yazıçı Ulduz Qasım *"Qarabağda qiyamət"* əsərinin çoxcəhətli mənzərəsində hər kəsin yerini dəqiq göstərir. Oğlunu döyüşə göndərən ananın inamı əqidəsi belədir ki, bütün itkilərə baxmayaraq vətən azad olunmalıdı. Bunun ən bariz nümunəsini Natiqin anasının məktubunda da hiss etmək olar: *"Əziz əsgərlər, sizə yazmaq istəyəndə Qarabağın havasını duydum, elə bildim ki, mən də ordayam, lap elə sizin yanınızdayam. Bağımız-bağatımız, gözəl kəndimiz gəldi xəyalıma. Meyvələrin, göy-göyərtilərin, çiçəklərin-güllərin ətrini duydum sanki. Rəssamların çəkə bilmədiyi o mənzərə, o möhtəşəm təbiət tablosu canlandı gözlərimin qarşısında. Dünya bioloqlarının hələ də kəşf edə bilmədikləri o təbiətin, yovşanın ətri məni məst elədi bir anlığa. Sıralanmış qovaqların pıçıltılarını duydum, nəğmələrini eşitdim. Salxım, boynubükük söyüdlərin həyalı baxışlarının seyrinə daldım. İçimə bir sakitlik, bir rahatlıq gəldi. Xoşbəxtlərin ən xoşbəxti oldum. Kaş ki, belə olaydı!..".* Məktub son dərəcə emosional və şairanə bir hisslə yazılıb. Əlbəttə, bu məktubu Ulduz Qasımın yazıçı təxəyyülünün məhsulu da hesab etmək olar. Amma onu da başa düşmək lazımdır ki, gənc əsgərin anası müəllimdir, həkimdir, jurnalistdir, bəlkə yazıçıdır, şairdir. Dəxli yoxdur, hər kim olursa, olsun, onun vətənin azad olunması istəyi qarşısı alınmazdır. Bu istək onu şair də edə bilər, yazıçıya da çevirə bilər. Elə yazıçı Ulduz Qasımın doğmaları müharibədə cəsarətlə vuruşurdu. Biz Natiqin anasının məktubunu bütün əsgərlərə ünvanlanmış müraciət kimi qəbul edirik və bu müraciəti elə Ulduz Qasımın özünün də adından qəbul etsək, həmin məktubun emosional dəyərindən heç nə əskilmir. Ulduz Qasımın özünün dediyi kimi, hər kəs müharibəyə kömək etmək istəyirdi. Biri sözü ilə, digəri maddi yardımıyla, başqa birisi arxa cəbhədəki vicdanlı əməyi ilə. Hələ adamların axın-axın əsgərlərə yardım, kömək aparmasını, onların yanlarında olmaq istəklərini də buraya aid etsək, onda bütöv xalqın birlikdə döyüşdüyünü də təsəvvür etmək çətin olmaz.

Söz yox, Azərbaycan İkinci Qarabağ müharibəsində tək deyildi. Türkiyə də Azərbaycanla birgə nəfəs alırdı. Qardaş Türkiyə hər an Azərbaycanın haqq işinə mənəvi dəstək verir, haqlının, haqsızın öz mövqeyi ilə sərhədlərini ayırırdı. Baxmayaraq ki, elə bədxah qonşularımız da vardı ki, onlar bütün imkanlarını faşist Ermənistanına köməyə sərf edirdilər. Amma yazıçı Türkiyənin və ümumiyyətlə, türklərin Azərbaycan xalqının haqq işinə dəstək verməsi ilə bağlı bəzi məqamları öz əsərinə gətirib: *"Bütün Azərbaycan xalqı nə iləsə igid və şərəfli ordumuza kömək əlini uzatmaq istəyirdi. Kimin nəyə gücü çatırdısa, lazımi yerlərə müraciət edirdilər, qruplara ayrılırdılar, cəbhəyə yardımlar daşıyırdılar. Hətta qonşu qardaş Türkiyədən də insanlar yardım üçün müraciətlər edirdilər. Hələ Vətən müharibəsinin ilk günlərindən maddi və mənəvi köməklərin sayı-hesabı yoxdu. Belə insanlar gördükcə adamın qəlbi dağa dönürdü, hətta sevincdən gözləri belə yaşarırdı. Ən təsirli hadisələrdən biri televizorda göstərilirdi. Bir Türkiyə gəncinin öz nişan üzüyünü Azərbaycan əsgərlərinə kömək üçün göndərməsini eşidəndə özümü saxlaya bilmədim. Sevincdən və qürurdan ağladım. Qəlbi olan hansı insan bunu görəndə qürurlanmaz, iftixar göz yaşlarını axıtmaz?... Belə qardaşı olan adamın kürəyi yerə dəyərmi? İlahi, sən ürəyə bax bu oğlanda, mərdliyə bax, səxavətə bax. Bunu necə izah etmək olar, hansı sözlərlə insanlara çatdırmaq mümkündür? Hansı cümlələrlə beləsinə minnətdarlıq etmək olar? Bunu eşidən hansı döyüşçü dağları aşmaz, dərələri keçməz? Düşmənin qəlbini yerindən çıxarmaz, gözlərini ovmaz? Ya rəbbim, şükürlər olsun böyüklüyünə, belə gözəl qəlbli insanlar yaratmısan! Beləələri olmasaydı, yəqin ki, həyatda sevinc göz yaşları tökməzdik, mənasızlaşardı həyat. Bəlkə də küsərdik həmişə qəddarlara, pis niyyətlilərlə, qan içənlərlə, uşaq qatilləriylə qarşılaşdıqca həyatdan. Yaşamaq istəməzdik belə bir şəraitdə. Güc qaynağımız, sevinc qaynağımız azalardı, qəlbimiz belə ağır yükləri qaldırmazdı. Nə yaxşı ki, belələrin yaratmısan, ilahi".* Yazıçının öz mövqeyini ifadə edən və daxili monoloq kimi səslənən bu parçada Azərbaycan ordusunun daha bir güc mənbəyi, yeni qardaş Türkiyənin doğmalığı bütün aydınlığı ilə diqqəti çəkir. Biz bir daha inanırıq ki, tarix Azərbaycan və Türkiyə arasına sərhədlər çəkib, sədlər qoysa da, bu doğmalıq, bu qardaşlıq yaddaşda yaşayıb. Tarix növbəti şansı qaytaran kimi doğmalar bir-birini arayıb-axtarıblar. Və birmənalı şəkildə məlum olub ki, Azərbaycana haqq işində yalnız Türkiyə dayaq ola bilər.

***(Davamı 6-cı səhifədə)***

*(Əvvəli 5-ci səhifədə)*

Orası da məlumdur ki, müstəqillik dövründə doğulmuş Azərbaycanın bir çox oğulları Türkiyədə hərbi təhsil alıblar. Türkiyə ordusunun dünyada təqdir olunan döyüş üsulunu mənimsədilər. Demək, həmin zabitlər Azərbaycana qayıtdıqdan sonra öz ardıcıllarını yetirdilər.

Türk ordusunun döyüş üslubunu xarakterizə edən əsas cəhətlərdən biri nəyin uğrunda döyüşdüyünü bilməsidir. Bir vaxt Atatürkün komandanlığı altında türk əsgəri az qüvvə ilə düşmənləri darmadağın edib Türkiyəni xilas etmişdi. Bəli, onlar nəyin uğrunda döyüşdüklərini bilirdilər. Məhz Ulduz Qasımın əsərində də Azərbaycan ordusunun yenilməzliyini xarakterizə edən cəhət kimi bu gücün nəyin uğrunda döyüşdüyünü bilməsidir.

Ulduz Qasımın "Qarabağda qiyamət" romanında birmənalı baş qəhrəman axtarmaq artıq əvvəlcədən qeyd etdiyimiz kimi lazım deyil. Çünki baş qəhrəman Ali Baş Komandanın rəhbərliyi ilə dəmir yumruğa çevrilmiş gücün özüdür. Bu güc ayrı-ayrı komandirlər, əsgərlər deməkdir. Türk ordusunun döyüş taktikasını mənimsəmiş zabitlərdən biri də Şahgəldi Atalızadədir. O da əslən Cəbrayılın Araz qırağı oymaqlarındandır.

İnsafən Ulduz Qasım, demək olar ki, qəhrəmanlarında fərq qoymur. Amma hər yerə-yurda görə onların keçirdiyi hissləri, yaşadıqları duyğular təbiətlərinə uyğun verməyə çalışır və buna nail olur. Onun Şahgəldi Atalızadə haqqında məlumatı da bu cəhətdən diqqəti cəlb edir: *"Baş leytenant Şahgəldi Atalızadənin də sıralarında olduğu bölük döyüşə Füzuli rayonundan başlamışdı. Cəbhəyə gələn bütün əsgərlər kimi baş leytenantın da içindən qara qanlar axırdı. Çünki bu rayon onun doğulub-böyüdüyü Cəbrayılla qonşu idi. Əl uzatsa çatacaq qədər yaxın olan Mehdili kəndindəndi. Hətta bəzən ona elə gəlirdi ki, ordan əsən rüzgar Şahgəldiyə oraların qoxusunu gətirir. Uşaqlığını keçirdiyi doğma yelləri görmək həsrəti ilə tutuşub yansa da, vəzifənin vacibliyi onu döyüş meydanında güclə tutub saxlayırdı".* Şahgəldinin komandirlik etdiyi bölük ikiqat əzmlə vuruşur. O, döyüşə Füzuli ətrafından girib. Amma heç də bu ərazilər onun doğulub-böyüdüyü Mehdili kəndindən uzaqda deyil.

Artıq müharibənin taleyindən və mütəxəssis hərbçilərin təhlillərindən məlum olduğu kimi bu ərazilər düşmənin tam inamla sarsılmaz hesab etdiyi Ohanyan xəttinin bir hissəsidir. Elə yazıçının da təəssüratından göründüyü kimi Azərbaycan əsgərinin qarşısında sədd duruş gətirmədi.

Hərb elmi öyrədir ki, müdafiə sədləri nə qədər güclü olur olsun, əgər onu kifayət qədər əzmkar canlı döyüşçü qorumursa, o gec-tez dağılacaq, yarılacaq. Məşhur Ohanyan səddi də beləcə Azərbaycan əsgərinin hücumlarının qarşısında dayana bilmədi.

Ulduz Qasım bu ərazilərdə hərəkət edən Azərbaycan əsgərinin azad elədiyi kəndlərin adını çəkir. Seyidəhmədlinin, Füzuli şəhərinin, İlandağın adları inadlı döyüşlərin getdiyi yerlər kimi xatırlanır. Baş leytenant Anar Əliyevin, döyüşçü Murad Rzayevin adları burda xüsusilə qeyd olunur. Ağır yaralanan komandiri əvəz edən Şahgəldi Atalızadə və Anar Əliyev ayrı-ayrı bölükləri döyüşə inamla aparırlar. Füzulinin Gecəgözlü kəndi bu inadlı döyüşlərin sayəsində azad edilir. Bölük komandiri Anar Əliyev yaralansa da, döyüşdən geri çəkilmir. Bizim əsgərlərimiz məhv etdikləri, əsir aldıqları düşmən qüvvələri sırasında PKK və İŞİD qruplaşmalarının döyüşçülərini də görürlər. Onlar nə qədər təcrübəli və fiziki cəhətdən hazırlıqlı olsalar da, inamlı Azərbaycan əsgərlərinin qarşısında davam gətirmir, öldürülür, yaxud da əsir götürülürdülər.

Burada bir gənc əsgərin xaricdən gətirilmiş muzdlu ilə təkbətək döyüşü təsvir olunur. Sevər adlı Azərbaycan gənci qətiyyən qorxub çəkinmir. O, düşmənlə əlbəyaxa döyüşə girişir. Bu mənzərəni təsvir edən yazıçının qeydləri yəqin ki, döyüş xatirələri sı-



rasından gələcəkdə də tez-tez xatırlanacaq. Məhz elə bu səbəbdən həmin parçanı oxuculara təqdim etmək düşünürəm ki, yerinə düşərdi: *"Səngərdə gedən atışma zamanı saqqallılardan biri uzunboylu Sevərlə təkbətək döyüşməli oldular. Taborun əsgəri onun silahını vurub yerə saldıqdan sonra yekəpər saqqallı göz qırpımında özünü onun üstünə atdı. Əsgər atəş açmağa macal tapmamış saqqallı heyvərə onun silahını vurub yerə saldı. Ancaq qəhrəman döyüşçü özünü itirmədi: "Gəl, donuz, gəl görək kim kimi məğlub edəcək. Sizin kimilər özlərini super qəhrəman sanırlar. Başınız haqqı, görəcəyik indi kimdi qəhrəman. Uzunboylu oğlan cəld aşağı əyilib onun ayaqlarından yapışdı və bir göz qırpımında yekəpəri yerə yıxdı. Fürsəti əldən verməyib özünü onun sinəsinin üstünə atdı.*

*Düşmən bir əli ilə Sevərin boğazından yapışdı, o biri əlini oğlan dizinin altına qoymuşdu. Onun güclü olduğunu hiss edən azərbaycanlı yenilməz əsgərin ağlına gəldi ki, yerdəki torpaqdan götürüb onun gözünə töksün, yoxsa, başqa cürə onun pəncəsindən qurtara bilməyəcək. Boğazı erməni döyüşçüsünün əlində olduğuna görə güclə əlinin birini yerə sürtdü və düşündüyünü etdi. Heç yeri görməyən saqqallı qışqırmağa başladı. Oğlan onun ətli və güclü əlini boğazından araladı və harası gəldi döyməyə başladı. Birdən bir az aralıya düşmüş silahını gördü. Cəld ayağa qalxıb silahını götürdü. Əsəbindən özünə gələ bilməyən əsgər yekəpərin qarnına bir neçə dəfə atəş etdi. Yaxınlaşan baş leytenant onun qolundan tutdu".* Sevərin düşmən muzdlusunu beləcə məhv etməsi Azərbaycan əsgərinin dönməzliyinin qanunauyğun nəticəsidir. İradənin, əzmin beləcə qələbəyə çevrilməsi, bir gənc əsgərin terrorçunu beləcə məhv etməsi haqqında qələbəsi kimi rəmzləşir.

Döyüş yoldaşı görür ki, Sevər necə qəzəblidir. Əslinə qalsa, Sevər düşməni elə qəzəbi ilə məhv edib. Qəzəb onun güc mənbəyi olub. Sual doğulur: necə olur ki, Sevər kimi bir gənc kifayət qədər döyüş təcrübəsi olan muzdlunu məhv edə bilir. Çünki Sevər üçün ideal vətəndir. Muzdlu üçün ideal puldur. Əgər buradan canını qurtarsa, sabah harada çox pul verələr, orada döyüşəcək. Sevər isə vətəndən heç yerə gedən deyil. Onun üçün hər şey elə bu vətənlə bağlıdır.

Sevərin ölmüş düşməni güllə atəşinə tutması onun dünyaya üz tutub demək istədiklərinin əvəzidir. Axı dünya nə üçün həqiqəti görmür. Sevərlərin nə üçün döyüşdüklərinin fərqinə varmır. Dünyanın ikili standartlarının nəzərində işğalçı ordu ilə torpağını azad etməyə çalışan, vuruşan döyüşçünün məramı fərqli deyil. Demək, bu ədalətsizlikdir Sevəri qəzəbləndirən.

Ulduz Qasım *"Qarabağda qiyamət"* romanında Azərbaycan xalqının müharibə üçün səfərbər olunmasında həqiqətin dərk olunmasına da xüsusi əhəmiyyət verilir. Hətta körpü uşaqlar belə nə üçün müharibə getdiyini, atasının harada, nəyin naminə vuruşduğunu belə bilir.

Sərhəd kəndlərini gəzən məmur bir ailənin vəziyyəti ilə maraqlanır. Məlum olur ki, bu ailədə əkiz qızlar var. Körpə uşaqlardır. Hətta o uşaqlar da qəpik-qəpik topladıqları pulu oyuncaqların içərisinə yığıb saxlayıblar. İndi həmin pulu da müharibəyə yardım üçün təqdim edirlər. Balaca qızların bu hərəkəti icra nümayəndəsi Fərhadı xeyli kövrəldir.

Ümumiyyətlə torpağı düşməndən azad edən əsgərin hansı hisslər yaşadığını, bəlkə, olduğu kimi təsəvvür etmək mümkün deyil. Amma elə məqamlar var ki, yazıçının xronikanı dəqiq öyrənməsindən, müharibənin gedişatını izləməsindən və eləcə də döyüşdən sağ çıxmış əsgərlərin yaddaş hekayətlərini dinləməsindən çox şey asılıdır və əlbəttə, həmin döyüş səhnələrinin real yaşantılarını yazıçı məhz aldığı təəssürat əsasında xəyalının imkanları qədər sözə gətirə bilir.

Bəzən elə vəziyyət olur ki, əsgərlər bir-birini müşahidə etdikcə bütövlükdə xalq haqqında təsəvvürlərini, millət haqqında düşündüklərini təsəvvürlərində canlandıra bilirlər. Yazıçının uğurudur ki, o, ayrı-ayrı obrazların belə düşüncələrini onların öz dilindən əsərə gətirir. Keçilməzliklərini hamısını geridə qoyan Azərbaycan əsgəri əslində, həm də öz mərdliyinin, igidliyinin tarixini yaradırdı. Əsərdən kiçik bir parçanı - leytenantın sıravi əsgər haqqında düşündüklərini burada xatırlatmaq məhz xarakterik olduğu üçün yerinə düşərdi: *"Mən elə bil, indiyə qədər millətimi yaxşı tanımamışam. Sən demə, bunların arasında səndən ötəri "uf" demədən canını verməyə həmişə hazır olan igidlər, bircə loxmasını bölən, ürəkləri dağ suları kimi saf, yenicə doğulmuş uşaq nəfəsi kimi təmiz, gözəl qəlbli insanlar çoxdur. Heç indiyə qədər bunları, bəlkə də, ağlıma gətirməzdim. Gendən-genə gördüyüm, yaxından tanımadığım adamlar haqqında fikir yürüdənlərin sözlərini dinləmişəm. Həsənə baxıram; adi, sadə bir ailədə böyüyüb, lakin nə qədər ağıllı, nə qədər igid oğlandır. Allahım, şükürlər olsun sənə, mənə belə bir millət, xalq vermisən".* Doğrudur, komandir burada sıravi əsgər Həsən haqqında düşünür. Onun millətinin təmsilçisi kimi görür. Amma bizim üçün bü düşüncələr, eyni zamanda digər əsgərlərə də şamil oluna bilər. Türkanın, İsmayılın, Eldostun... digərlərinin adlarını çəkməmək olmur. Komandir Elsevər Paşayevin əsgərlərə münasibəti, leytenant Qaragözovun müəyyən situasiyalarda çevik düşüncəsini yada salmaq bəs edir ki, Azərbaycan ordusu bütövlükdə qəhrəman idi qənaətinə gələk. Məhəbbətin, Mehmanın, Kamilin, Məhəmmədin, Namiqin, Mehdiyevin, Tahirin, bir sözlə, digər gənclərin hamısının döyüş ruhu məhz qəhrəmanlıq əhvalı üzərində köklənib. Və burada belə bir ümumiləşdirici qənaəti də yada salmaq olar. Azərbaycan ordusu Vətən idealını kifayət qədər ruhuna çəkmiş, ordunun hər bir əsgəri Vətənin bir parçası olmuşdur.

Azərbaycan ordusunun cəsur komandiri mayor Elsevər Paşayev haqqında bir qədər əvvəldən mən məlumat vermişdim. O, yaralanıb döyüşdən çıxmışdı. Əslində, onun imkanı var idi ki, bir daha döyüşə qayıtmasın və həkimlər bunu tələb edirdilər. Amma o, döyüş yoldaşlarının yanına qayıtmağı, müharibənin qələbə ilə başa çatdırmağı daha üstün bilir və təəssüf ki, bu qəhrəman komandir müharibənin iyirmi dördüncü günündə - Qubadlı uğrunda gedən döyüşlərdə, Xanlıq yaxınlığında əbədiyyət ucalığına qalxdı.

Bütün müharibə boyu əsgərlər yüksək ruh yüksəkliyi ilə vuruşurlar. Hətta ən çətin məqamda əsgər döyüş yoldaşının yaralanmasından, yaxud həlak olmasından sarsılsa da yenə özünü itirmir. Bütün gücü ilə yaralının, yaxud şəhid olanın meyidini döyüş bölgəsindən çıxarmağa çalışır.

Ulduz Qasım Cəbrayıl şəhərini (əslində şəhər yoxdur), ona bitişik kəndləri azad edərkən əsgərlərin fədakarlığını həssaslıqla yazır. Türkanın, Əhmədin, digərlərinin qanlı savaşlardan keçmələrini, Əhmədin bu savaşlardan birində ağır yaralanmasını təsirli lövhələrə çevirib oxucuya çatdırır.

***(Davamı 7-ci səhifədə)***

## 6. Təbiəti xilas etmək naminə

Məlumdur ki, Cəbrayıl həm də qocaman çinarlar, bol sulu kəhrizlər diyarı idi. Cəbrayıl şəhərində bir neçə çağlayan kəhriz vardı. Şəhərin düz mərkəzində, kəhrizin üstündə min yaşıl çinar əzəməti ilə gəlib-gedənlərin hamısını heyran qoyurdu. Süleymanlı, Balyan, Daşveysəlli, Soltanlı, Çay-yataq kəhrizləri çox məşhur idi. Müəllif Daşkəsən kəndinin azad olunması günü bu kənddən olan Sədaqətin keçirdiyi hissləri yazıya alarkən düşmənin təbiətə nə qədər zərbə vurduğunu da diqqətə çəkir. Demək, erməni vandalları kəhrizlərin gözlərini doldurur, quyuları çirkləndirir, bulaqları batırır, ayrı-ayrı yerlərdə suların istiqamətini dəyişirdilər. Bu da onu göstərir ki, erməni vandallarını təkcə insanlığın düşməni deyil, onlar əslində mədəniyyət ocaqlarını, abidələri məhv etdikləri kimi təbiətə də ağır və sağalması çətin olan zərbələr vururdular. Səhifələr dəyişdikcə igid Azərbaycan döyüşçülərinin adları da dəyişir. Bu döyüşlərdə Vüqar həlak olur, Əhməd yaralanır, Sahibin, digərlərinin qəhrəmanlığı düşmənə sarsıdıcı zərbələrlə təqdim olunur. Hər halda müəllifin Cəbrayıl çinarları və kəhrizləri ilə bağlı çox təsirli pritçaları oxucuların yaddaşından uzun müddət silinmir. Təkcə onu qeyd etmək yerinə düşər ki, Cəbrayılın mərkəzindəki çinar ən möhtəşəm tarixi abidə kimi buraya yolu düşən qonaqların hamısının ziyarət yeri idi.

İndi rayona yolu düşən, bu xarabazarlıqları ziyarət edən insanların çəkdikləri görüntülərdən aydın olur ki, min yaşlı həmin çinar necə məhv edilib. Çinarın gözü batırılıb. Əslinə qalsa, bu ekoloji terrordur. Bunun üçün erməni vandalları beynəlxalq tribunal qarşısında cavab verməlidirlər.

Müəllif hərdən ritorik suallar qoyur. Axı düşmən buraya nə üçün gəlib? Axı onlar bu yerlərdə nə axtarırdılar? Axı onların hamısına aydın idi ki, onlar bu yerlərdə əbədi qala bilməyəcəklər. Xalq özünə gələn kimi, öz qüvvəsini toparlayan kimi onların başlarını əzəcəklərini bilmirdilərmi? Əlbəttə, qəhrəmanların dilindən səslənən həmin suallar cavab tələb etmir. Bu cavab əslində Azərbaycan ordusunun düşmən üzərində qələbəsi ilə özünü diktə edir. Sonra müəllif özü təqribən həmin sualları bu və ya digər dərəcədə təkrar edərək cavablamağa çalışır: "Görəsən, nə axtarırlarmış bu yerlərdə? Yoxsa, onlara elə gəlib ki, Qarabağın hər qarışında qızıl, gümüş yatağı var? Ağılsızlar, axmaqlar, nə qədər də acgözdürlər. İlahi, belə vəhşi ikinci bir toplum gələ bilməzdi dünyaya. Əgər ikincisi olsaydı, yer üzündə hər gün ancaq müharibə, münaqişə olardı. Cana yığılardı bütün insanlar əllərindən pislikdən savayı bir şey gəlməyən mənfurların əlindən. Gör qismətə bax ki, onlar da gəlib düz bizim qulağımızın dibinə, bizim cənnət torpaqlarımıza sığınıblar. Yoxsa, kim onları yola verərdi, indi çoxdan köklərini yer üzündən silmişdilər". Təkcə elə bu qeydlər də bəs edir ki, iki xalqın müqayisəsində birinin nə qədər vandal, qəddar, yırtıcı olduğunu oxucu görsün. Digərinin nə qədər humanist, insanpərvər olduğu başa düşülsün. Əsrlər boyu, onilliklərlə ermənilər Azərbaycanlıların hər bir yerinə daraşıb, yaşayıb, işləyiblər. Özləri də çox normal, yüksək səviyyədə dolanıblar. Bəlkə də dünyada belə bir xalq tapılmaz ki, gəlib sığındığı, yaşayışını təmin etdiyi yerlərin insanlarına bu qədər qəddar münasibət göstərsinlər.

Azərbaycan əsgərinin hər bir qələbəsi, torpağın azad olunan hər qarışı döyüşçülərə nə qədər fərəh gətirirdisə, Ali Baş Komandan tutmuş sıradan hər kəsə bir o qədər fərəh bəxş olunurdu. Ulduz Qasım "Qarabağda qiyamət" əsərində Xudafərini də xatırlayır. Xudafərinin azad olunduğu gün döyüşçü Həsənin sevincdən az qalır ki, ürəyi dayansın.

Açığı, bu səhifələri mən də çox həyəcanla oxudum. Gəncliyimin, fərəhli günlərimin keçdiyi bu yerləri bir daha gözlərimin önünə gətirdim. Xudafərin körpüsünün Araz üstündə qürurla, mətanətlə davam gətirməsi böyük Azərbaycanın birlik rəmzi olaraq hər birimizin qəlbini iftixar hissi ilə doldurur.

Ulduz Qasıma minnətdarlıq duyğuları ilə qeyd edirəm ki, Xudafərin körpüsünə səyahətim məni də çox qürurlandırıb. Diri dağlarına, Qurbani yurduna, bir vaxtlar divarları arasında dərs dediyim Xələfli stansiyasının məktəbinin yerinə sonsuz ağrı qarışıq sevinc hissləri ilə baxırdım. Doğrudur, salamat bir ev yoxdur. Mənim evimin də heç yeri, yurdu bilinmirdi. Öz əlimlə saldığım, əkib-bəcərdiyim gözəl bağ qupquru, boş səhra kimi göz dağına çevrilmişdi. Hər halda, bağın da, evin də, kəndin də, bütün yaşayış məntəqələrinin də memarı, yaradanı insandır. Bütün təbiəti ilə torpağa bağlı olan insanlarımız tezliklə bu yeri, yurdu abad edəcək. İnsanlar gənclik xatirələrinin düşüncədə izi qalmış yerlərinə səyahət edəcəklər.

Körpü verilişində mən Azərbaycanın bir çox görkəmli yazıçılarının, şairlərinin bu yerlərə səfərini, körpünü ziyarət etmələrini xatırladım. Əlbəttə, Səməd Vurğunun körpü həsrətli təəssüratını da yada saldım:

*Araz qırağında dayandı qatar,*
*Elə bil qəlbim də dayandı bu dəm.*
*Sıxlaşdı göydəki seyrək buludlar.*
*Deyəsən, başıma dolandı aləm.*

Bir vaxt Səməd Vurğun bu körpünün yanından, bizim kəndimizin içindən keçib özümüzə dost bildiyimiz İrəvana qonaq getmişdi. Amma o vaxt kimsənin ağlına gəlmirdi ki, bu saxta dostlar bir vaxt bizə necə xəyanət edəcəklər.

Körpünün yanındakı çıxışında yazıçı Ulduz Qasımın Qarabağ trilogiyasını birər-birər yada saldım. Bu müharibədə hansı əzabları çəkdiyini və bütün bunları yazıçının necə həssaslıqla qələmə gətirdiyini danışmaq mənim üçün asan deyildi. Hər halda, həmin gün körpü üstündə "Həsrət körpüsü" adlı şeirimi də oxudum. Şeirin həssas notları üzərində dayanmaq mənim üçün çətindir. Bəlkə də həmin gün Ulduz Qasımın yaradıcılığı ilə əhatəli tanış olmasaydım, körpü ətrafındakı çıxışım da o qədər əhatəli və təsirli alınmazdı. Qoy bu şeiri oxuyanlar da elə həmin hissin təsiri kimi qəbul etsinlər. Hər halda bizim bütöv Azərbaycan idealımız var və Xudafərin körpüsü həmin ideyanın yaşarı rəmzi kimi mətanətlə, dəyanətlə zamanlara sinə gərir.

*Xudafərin üstə doğulmuşam mən,*
*Anam ağrısını yəqin unutmaz.*
*Həsrət ağrısıyla yoğrulmuşam mən,*
*Hər ağrı qəlbimi didib qanatmaz.*

Bu dörd misra mənim "Həsrət körpüsü" şeirimin epiqrafı kimi səslənir. Azərbaycana bağlı olan, Azərbaycanın birliyini, böyüklüyünü ideal olaraq qəbul edən hər kəsin düşüncəsində həsrət körpüsünün ağrısı var.

"Qarabağda qiyamət"in düşmən başında çatlayan vahiməsi Xudafərində daha aydın duyulurdu. Ancaq, əlbəttə, körpü bizim tarixi yaddaşımız kimi özü də bizimlə danışır.

*Yuxuma gəlmişdin həsrət körpüsü,*
*Dinmədin, sükutla baxışdıq elə...*
*Burum-burum qalxan siqar tüstüsü,*
*Halımı, günümü danışdı sənə.*

*Necə gəlmişdinsə, elə də getdin,*
*Dərdli xatirələr qaldı mənimlə.*
*Gözümə qor töküb, dumanda itdin,*
*Qəmin dəryasında batdım qəmimlə.*

*... Hər gün o körpü ilə göz-gözə durub,*
*Necə səssiz-səssiz, tək danışardım.*
*Günahsız məhbusam - boynumu burub,*
*Bəlkə xəyalımda dağlar aşardım.*

*Həsrətlə baxardım o yan sahilə,*
*Dərdi öz içimdə çəkərdim, Allah!*
*Həsrəti bizlərə qıyan sahilə,*
*Məhəbbət toxumu əkərdim, Allah!*

*Necə də naşükür olmuşam onda,*
*Gözümün həsrəti yanır halına.*
*İstək sızıldayır ilikdə, qanda,*
*İndi həsrət qalıb göz vüsalına.*

*İllər ayrısıyam, qərib sahildən,*
*Araz muştuluğa bir ah gətirib.*
*Təbriz ağrısına ürəkdən, dildən,*
*Qarabağ ağrısı pənah gətirib.*

*Yuxuma gəlmişdin həsrət körpüsü,*
*Dinmədin, sükutla baxışdıq elə.*
*Burum-burum qalxan siqar tüstüsü,*
*Halımı, günümü danışdı sənə.*

Əlbəttə, bu şeiri mən 24 oktyabr, 2001-ci ildə yazmışdım. Onu da deyim ki, elə Xudafərin də təqribən ilin həmin günlərində düşməndən azad olundu. Necə deyərlər, söz vaxtına çəkdi.

Ulduz Qasım qəlbi vətənlə döyünən sənətkardır. O da imkan olan kimi yaşadığı Moskvadan körpü ilə görüşmək arzusu ilə Azərbaycana gəldi və bu günlərdə Xudafərin körpülərini ziyarət etdi. Hər halda Ulduz Qasımın tarixi düşüncələri onun dünya əhəmiyyətli abidələr sırasında Xudafərinə verdiyi dəyərin təcəssümüdür. Ulduz Qasım doğma yurda - Cəbrayıla, Xudafərinə səyahətindən sonra elə isti-isti təəssüratını bir statusunda belə ifadə edir: *"Hardan başlayacağımı, necə yazacağımı bilmirəm...*

*Getmək xəyalına düşəndə, nədənsə çəkinirdim. O xarabalıqların həqiqi olduğunu öz gözlərimlə görməkdən qorxurdum. Yerində qoyub gəldiyim gözəlliklərin yox olduğunu bilməkdən qorxurdum. Sanki hələ də möcüzə olacağına azacıq ümidim vardı... İstəyirdim, yuxuya çevrilsin olub-keçənlər, eşitdiklərim, oxuduqlarım. Barəsində yüzlərcə səhifə yazdıqlarım... Nələr yaşamadım ora aparan yollarda... Necə olacaq, necə baxacam oralara, danışa biləcəmmi, fikirlərimi, hisslərimi çatdıracammı... Az. Tv-nin əməkdaşı, gözəl insan, savadlı jurnalist Ülviyyə Heydərova anlayırdı içimdən keçənləri, suallar verir, məni qara fikirlərdən uzaqlaşdırmaq istəyirdi. "Mehdili" sözü yazılan tablonu görəndə həyacanım daha da artdı. Heç bir möcüzə baş vermədi. Eşitdiklərim, duyduqlarım, yazdıqlarım doğruydu. Yox idi daha Mehdili, ömrümün yarısını keçirdiyim doğma kəndimi yerlə-yeksan eləmişdilər. Bütün dağıntılara baxmayaraq, məhləmizə dönən yolu o dəqiqə tanıdım. Gözlərim yaşardı. Ən dəhşətlisi də o idi ki, uçurulub-dağıdılmış yerlərə getməyə də icazə vermirdilər. ANAMA–nın əməkdaşı dəmir yoldan aşağı enməyə qoymadı. Minaların olduğu işarələri göstərdi mənə. Buna baxmayaraq, o dağıdılmış ev qarşımdaydı. Həzin, kədərli görkəmiylə mənə baxırdı. Bu dünyada ən gözəl həyat müəllimim olmuş, əvəzsiz insanın, rəhmətlik möhtərəm atamın öz halal zəhmətiylə uzun illər tikdiyi iki mərtəbəli evdən qalan divarlara ürək ağrısıyla baxırdım. İçimdəki yaranın qaysağı qopmuşdu. Verilən suallara doğru-düzgün cavab verə bilmirdim. İçimdən keçdi ki, minalara baxmayaraq, evimizə gedim. Əlimi yerinə, torpağına sürtüm. Həsrətimi azacıq da olsa, dindirim. Lakin qanunu pozmaqdan utandım.*

*İçimə axan göz yaşlarımı heç bir sözlə, heç bir cümləylə anlada bilmərəm sizə. O tablonu heç bir kəlmə ifadə etmək gücündə deyil...Uşaqlığım, gəncliyimin bir hissəsini yaşadığım ata yurdumu, bu şəkildə görməyin nə demək olduğunu bilirsiniz. Sanki o müasir kənd, bağlı-bağatlı, yaraşıqlı oba, yurd olmayıb heç. Müharibənin insanlığa verdiyi bundan artıq nə ola bilərdi ki...Budur müharibə, xaraba qalmış evlər, yanmış, qurumuş ağaclar, məhv olmuş uşaqlıq, gənclik, ümidsiz qocalıq, qərib ölüm... Ayrılmaq istəmirdim dağıdılmış, sadəcə iki divarı qalmış o evə baxmaqdan. İçimdən nələr-lər gəlib keçmirdi? Nələrləri, kimləri xatırlamırdım ki... Valideyinlərimi, doğmalarımı, qohumlarımı, qonum-qonşunu. Evdəki hər şeyi, hətta, orda qalıb, məhv olan dəftərlərimi. İndiyə qədər çox kədərli film izləmişəm, çox acı dolu roman oxumuşam. Amma həyat... indi gördüyüm mənzərə o kədərli sənət əsərlərinin hamısından daha ağrı doluydu. Tanrıya çox məsələdə əl açıb yalvarmışdım, amma indi, vaxtın, saatın durmasını dilədiyim qədər heç nəyi belə yanğı ilə istəməmişdim uca Yaradandan. Əlimi uzatsam, çatacaq qədər yaxın olan yurduma yaxınlaşa, əlimi uçuq divarlara sürtə də bilmirdim minaların əlindən. Hiss edirdim yanımdakılar getmək istəyir, amma məni bu mənzərəyə baxmaqdan ayırmağa qıymırdılar. Kövrəlsəm də, hönkürə bilmirdim. Boğazıma tıxanmışdı qəhər... Kaş ki, bir gün içimdəki əzablardan azad ola biləydim. Tək mən deyil, bütün Qarabağ torpağından didərgin düşənlər bacaraydı bunu. Çox ağırdı bu yükü daşımaq. Məzlum-məzlum gendən durub doğma ocağına saatlarla baxmaq, dağıdılmış yuvaların sənə yalvarışlı baxışlarını qaldırmır insanın çiyinləri. Sanki, cansız sandığımız uçuq divarlar da insan nəfəsinə, insan ünsiyyətinə həsrətdilər...*

*Cəbrayıl rayonun mərkəzinə irəlilədikcə erməni varvarlarının dağıtdıqları kəndlərə baxırdım ürək ağrısıyla. Bircə ev, bir tikili salamat deyildi. Bulağın sərin suyu da alovumuzu-odumuzu söndürə bilmədi. Yaraşıqlı, mənzərəli rayon mərkəzinin yerlə yeksan olduğunu görüb, özümə yer tapa bilmədim. İndiyə qədər də, elə bil, oraları gəzirəm, daim gözümün önündə canlanır o mənzərələr. Yuxularıma girir, ayrıla bilmirəm o səfərdən. Xudafərin körpüsünün ziyarəti də unudulmazdı. Birinci dəfə tələbəlik illərində rəfiqəmlə getmişdik ora. Tez-tez də xatırlayırıq o səfəri. Nələr xatırlatmırdı bu qədim abidə insana? Adi körpü deyildi bu. Özündə şahidi olduğu çox sirrləri, çox hadisələrin tarixini qoruyub saxlayırdı... Arazı lap yaxından gördüm yenə. Onun səsiylə, laylasıyla böyüdük biz. Əsərlərimizin, yazılarımızın qəhrəmanlarına çevrilən, bir xalqı ikiyə bölən çayın suyunda da bir həzinlik, bir kədər vardı... Yol boyu yenə Allaha yalvarırdım ki, kaş bütün gördüklərim xəyala çevriləydi. Dəhşətli bir yuxu olaydı. Ayılıb_ həqiqət olmadığını görüb sakitləşəydim. Dərindən nəfəs alaydım. Kaş... 11.10.2022".* Bu düşüncələri oxumaq nə qədər kədərli olsa da, qürurlanmaq məqamları da az deyil. Yazıçı düşməndən azad olunmuş torpaq üzərində düşünür.

"Qarabağda qiyamət" isə davam edir. Yer-göy alışıb yanır. Vətəni azad etmək eşqi ilə ürəkləri çırpınan oğullar ölümün üstünə yeriyir. Ölümə qalib gələrək düşməni məhv edirlər.

Ulduz Qasımın "Qarabağda qiyamət" əsəri igidlik salnaməsidir. Səhifələrdə canlanan şəhid oğullar, bu yerlərdə qan tökmüş qazilər, vətən uğrunda vuruşmuş döyüşçülər yazıçının bu əsərini özlərinin əbədiləşmiş həyat salnaməsi kimi gələcək nəsillərə irs qoyublar. Bəli, bu əsəri təkcə Ulduz Qasım yazmayıb. O, bu əsəri şəhidlərlə, qazilərlə, döyüşçülərlə birgə yaradıb.

**14.10.2022**